Azərbaycan Respublikası Nazirlər Kabinetinin

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 395** **Bakı şəhəri, 17 sentyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydası"nda dəyişikliklər edilməsi haqqında***

"Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 10, maddə 662; 2002, № 11, maddə 675; 2006, № 9, maddə 822) ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydası"nın 11-ci hissəsinin ç) yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda d) yarımbəndi əlavə edilsin:

"d) lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, lisenziyanın və icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün dövlət reyestrində qeydiyyatdan keçirilmiş obyektlər haqqında məlumatların həmin portala ötürülməsi.".

*Novruz MƏMMƏDOV*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı